# “Yer kürəsi insan üçün yararsız məkana çevrilmək təhlükəsi qarşısındadır”

## Azərbaycanlı professordan “Taclı kabus”a fərqli baxış

**Fuad Vəliyev**

*Bakı Ali Neft Məktəbinin professoru*

**əvvəli ötən sayımızda**

***“[İblis] dedi: Ey Rəbbim! Qiyamət gününə qədər mənə möhlət ver. [Allah] buyurdu: Sənə möhlət verildi, vaxtı məlum günə [qiyamətə] qədər. [İblis] dedi: Sənin izzətinə – qüdrətinə and olsun ki, onların [Adəm övladının] hamısını [haqq yolundan] azdıracam; Yalnız sənin sadiq bəndələrindən başqa! (Sad s., 79-83)”.***

### Nəfs

İnsanın rifahı artdıqca, onun təbii resurslara tələbatı da artır və o, nəfsə uyduqca, daha çox, daha keyfiyyətli, daha gözəl, daha ləzzətli, daha komfort şüarları ilə sonu görünməyən istəklərlə yaşamağa adət edir. Lakin rifahın artması ilə İnsan daha xoşbəxt olurmu? Arzular bitib- tükənmir. Bu arzu-istək silsiləsini həyata keçirmək ehtirası nəfsə uymuş insana nəinki xoşbəxtlik gətirmir, əksinə, yeni-yeni qlobal problemlər məngənəsində onu tədricən məhvə sürükləyir.

İnsan öz nəfsi qarşısında aciz bir varlığa çevrilmişdir...

Düşmənlə savaşdan qələbə ilə qayıtmış bir dəstə döyüşçünü qarşılayan Peyğəmbərimiz (s) onları salamlayaraq demiş: “Xoş gəldiniz, ey kiçik cihadı yerinə yetirənlər! Amma böyük cihadınız hələ qalır”. Soruşdular: “Ya Rəsulullah, o böyük cihad nədir?” Peyğəmbər (s.) cavab verir: “Nəfslə cihad!”.

Peyğəmbər (s) buyurmuş: “İnsanın nəfsi onun ən qatı və təhlükəli düşmənidir. Çünki hər-hansı düşməninə yaxşılıq etsən, o, səninlə dost ola bilər, lakin nəfsə yaxşılıq edib ona istədiyini versən, onun sənə qarşı düşmənçiliyi daha da artmış olar”.

### Meymun və portağal

Asiyada bəzi vəhşi qəbilələr meymun əti yeyirlər. Onlar meymunu tutmaq üçün çox effektiv bir üsul tapmışlar. Bir qutu düzəldilir və bu qutuda meymunun pəncəsi keçəcək ölçüdə bir yarıq açılır. Qutunun içərisinə meymunun sevdiyi bir meyvə, məsələn, portağal qoyulur və qutu meşədə ağaca bərkidilir. Meymun meyvənin iyini duyub gəlir, pəncəsini yarıqdan içəri salır, portağalı ovcuna alır və ovcu şişdiyindən pəncəsini geri çıxara bilmirg O görür ki, adamlar yaxınlaşır, başa düşür ki, onu tutub öldürə bilərlər və yəqin, anlayır ki, ovcundakı portağalı buraxsa, qurtula bilərg Buraxmır! Nəfsi meymuna qalib gəlir – o, portağaldan əl çəkə bilmir və adamlar gəlib onu asanlıqla tuturlar. İndi insan ovcundakı portağalı buraxmaq istəməyən həmin o meymunun günündədir. Qurtulmaq üçün insan mütləq, nəfsinə qalib gəlib, “portağalı” buraxmalıdır...

### İsrafçılıq

***Son əlli il ərzində Qərbin aparıcı ölkələrində İnsanın rifah indeksi görünməmiş dərəcədə artmışdır. Lakin bu rifah yüksəlişi ekosistemin amansızcasına istismarı və nəticə etibarilə, ekoloji izin kəskin artımı, təbiətdəki ilahi tarazılığın pozulması ilə müşayət olunmuşdur. Dünya əhalisinin yalnız 20%-i iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə yaşayır, lakin ətraf mühitə atılan sənaye tullantılarının 75%-i bu ölkələrin payına düşür. Ölkə iqtisadi cəhətdən nə qədər çox inkişaf etmiş olarsa, onun ekoloji izi bir o qədər çox olur.***

ABŞ-nın əhalisi dünya əhalisinin 5%-ni təşkil etdiyi halda, dünya resurslarının 30%-ni istehlak edir. Lüksemburq əhalisi bu ölkənin ərazisinin potensial imkanlarından 10 dəfə artıq təbii resurslarlar istehlak edir. Almaniya əhalisinin adambaşına düşən ekoloji izi Mozambik əhalisinə nisbətən on dəfə çoxdur.

Neftlə zəngin bir sıra müsəlman ölkələrində harınlıq, israfçılıq həyat tərzinə çevrilmişdir. WWF-in məruzəsinə əsasən, dünyada hər bir adam Qətərin orta gəlirli sakini qədər maddi nemətlər sərf etmiş olsa, onda bəşəriyyətə mövcud Yer kürəsi azlıq edərdi – Yer kürəsi, ən azı, 7 dəfə böyük olmalı idi. Qətərli müsəlman bəndə öz dilində oxuduğu Quran ayəsinə nədən riayət etmir?! “Yeyin, için, ancaq israf etməyin! Allah-Təala israf edənləri, əlbəttə, sevməz”. (Əraf s., 31)

### Le-Şatelye Prinsipi

Həyatın varlığını təmin edən hər bir fundamental faktorun xüsusiyyətləri ilahi elm və qüdrətlə ən optimal şəkildə seçilmiş və bu faktorlardan hər hansı birinin dəyişməsi həyatın mövcudluğunun inkarı mənasına gəlir. Təbiətdəki qlobal dayanıqlığı təmin edən təməl qanunlardan biri Le-Şatelye (Le Chatelier) prinsipi ilə ifadə olunur. Bu prinsip ən ümumi, fəlsəfi mənada aşağıdakı kimi təqdim oluna bilər:



***Dayanıqlı tarazlıq halında olan hər hansı sistemə (fiziki, kimyəvi, bioloji, ekoloji, sosyal) onun tarazılığını pozmağa çalışan xarici faktor təsir edərsə, bu sistemdə həmin təsirə qarşı əks-təsir yaranacaq və sistem elə bir yeni tarazlıq halına keçməyə çalışacaq ki, bu halda xarici təsir minimuma endirilsin və ya tamamilə yox edilsin.***

***Bu prinsipə əsasən, tarazılıqda olan sistem kimi, təbiəti, onu tarazlıqdan çıxarmağa çalışan faktor olaraq İnsanı götürsək, onda yaranmış qlobal ekoloji problemlərin qanunauyğunluğu aşkar şəkildə özünü göstərir – nəticə etibarilə, Ekosistem insanın varlığı üçün tamamilə yarasız yeni tarazılıq halına keçə bilər.***

### Holosen, yoxsa Antroposen?

Təxminən, on iki min il bundan qabaq buzlaqlar Avropanın şimalından çəkilməyə başladı və temperatur mülayim bir diapozonda stabilləşdi və bu da insan sivilizasiyanın yaranması və inkişafı üçün münbit bir zəmin oldu. Beləliklə, 12 min ildir ki, insan Holosen (Holocene) adlanan bir geoloji epoxada yaşamaqdadır. Min illər ərzində Yer kürəsində bir geosistem olaraq, ciddi bir dəyişiklik baş verməmədi, suyun, havanın, torpağın və ümumiyyətlə, ekosistemin əsas fiziki, kimyəvi, bioloji faktorları dəyişməz olaraq qaldı. Lakin Sənaye inqilabından başlayaraq insan, bir bioloji növ olaraq, ekosistemi ciddi şəkildə dəyişdirə biləcək qədər qüdrətli elm və texnologiyaya malik olmaqla, ekosistemin dominant faktoruna çevrildi. İndi bir sıra alimlər belə bir nəticəyə gəlmişlər ki, Holosen epoxası artıq bitmiş, yeni bir geoloji dövr, insanın təbiət üzərində dominantlığı epoxası – Antroposen (Anthropocene) epoxası başlamışdır.

Geoloji epoxalar milyon illər ərzində ***formalaşır və yeni epoxanın başlanma tarixi müəyyən təbii kataklizmlərin başvermə tarixilə müəyyənləşir. Lakin indiki dövrün xüsusiyyəti odur ki, cəmi yüz il ərzində insanın fəaliyyəti nəticəsində Yer üzündə elə ciddi dəyişikliklər baş vermişdir ki, bu, yeni geoloji epoxanın başlandığını deməyə əsas verir. Ekosistemə məxsus çox sayda bioloji növlərin məhv edilməsi, genetik manipulyasiyalar nəticəsində yeni heyvan, bitki , mikroorqanizm növlərinin yaradılması, Planetin plastik materiallar, beton, aliminium, atom-nüvə yanacağı, parnik qazları ilə zibillənməsi, Planetin enerji axınlarının dəyişdirilməsi, meşələrin sürətlə qırılması, Dünya okeanının turşululuğunun artması, dəniz planktonlarının məhvolma prosesi, torpağın üzvü gübrələrlə zəhərlənməsi, qlobal iqlim dəyişikliyi və i.a., bütün bu proseslər çox sürətlə, bir nəslin ömrü qədər bir vaxtda baş verməkdədir.***

Bir çox model tədqiqatları onu göstərir ki, əgər təcili və ciddi tədbirlər görülməzsə, yeni geoloji epoxa tam şəkildə bərqərar olacaq və nəticə etibarilə Yer kürəsi artıq insan üçün yararsız bir məkana çevriləcək.

### Exponensial Qanun

Qlobal proseslər (əhali artımı, enerji istehsalı və istehlakı, ətraf mühitin çirklənməsi, pandemiyanın yayılması və s.) riyazi olaraq eksponensial qanunla ifadə olunur. Bu qanuna tabe prosesin xüsusiyyəti ondan ibarətdir ki, vaxtında qarşısı alınmazsa, sonda o, partlayış xarakteri alır. İnsanın, təbii resursların amansızcasına istismarı ilə müşayiət olunan mövcud həyat tərzi onu kəskin ekoloji böhrana sürükləyir.

***Nə qədər ki, ekoloji vəziyyət partlayış həddinə çatmayıb, İnsan dərk etməlidirlər ki, o, Yer adlı, kosmik mənada, kiçicik bir məkanın sakinidir və gələcək mümkün fəlakətdən qurtulmağın yeganə yolu, ədavətdən, kindən, dözümsüzlükdən, savaşdan əl çəkib, tövbə edib, nəfsinə hakim olan, qənaətcil, sivil bir varlıq olaraq “Ana təbiəti” qoruyub saxlamaqdan ibarətdir. İnsan ifratdan, israfdan uzaq olmaqla nəfsin hökmünə tabe olmayaraq, harınlıqdan, aşırı əyləncə və komfortdan, sivilizasiyanın ifrat nemətlərindən əl çəkməli, maddi və energetik tələbatları rasional şəkildə ödəməklə yaşamaq onun həyat imperativinə çevrilməlidir.***

### Ekoloji Borc Günü

İnsan bu gün sanki təbiətdən almaqda olduğu borcla yaşayır və bu borc nəinki azalmır, əksinə, ildən-ilə artmaqda davam edir. Yerin Həddiaşma Günü və ya Ekoloji Borc Günü ilin elə bir ayı və günüdür ki, həmin tarixdə Yerin bir il üçün hesablanmış “büdcəsi” – qida, xammal, enerji resursları, CO2-ni udma potensialı – artıq xərclənmiş olur.

Məyusedici faktdır ki, biz 2019-c ildə Ekoloji Borc Gününü artıq iyulun 29-da “qeyd etdik”. Bu, o deməkdir ki, ilin əvvəlindən iyulun 29-a qədər olan dövrdə, İnsan artıq bir il üçün nəzərdə tutulmuş resursları “”yeyib qurtarmış” və yerdə qalan beş ay ərzində o, növbəti ildən alınan” hesabına yaşamalı olmuşdur.

### “Yer” kosmik gəmisi

Kosmosun sonsuz ənginliklərində Yer adlı kiçicik bir gəmi hərəkət etməkdədir. Gəminin sərnişinləri müxtəlif irqlərə, dinlərə, məzhəblərə, əqidəyə, mənəviyyata sahibdirlər. Onlar hamısı Adəm övladı olsalar da, bir-biriylə yola getmirlər, anlaşa bilmirlər, elə hey savaşır, vuruşur, bir-birini qətlə yetirirlər. Onlar böyük elmi nailiyyətlərə sahib olmuşlar, lakin bu nailiyyətlər ilk növbədə bir-birlərini qətlə yetirmək üçün daha mükəmməl üsulların kəşf edilməsinə, silahlanmağa xidmət etməkdədir. Gəminin atsekləri hər an partlayışa hazır kütləvi qırğın silahları ilə doludur, gəmi zəhərli tullantılarla zibillənməkdə davam edir. Su, qida, enerji ehtiyatı yetərli deyil və yaxın zamanda tükənə bilər. “Yer” kosmik gəmisi milyard illərdir ki, Günəş ətafında və Günəşlə birlikdə sonsuz kainatda nizamlı bir hərəkətdədir. Bu kosmik hərəkət sərnişinsiz də davam edə bilər...

### Yolayrıcı

İnsanın gələcək taleyi iki fərqli ssenari üzrə reallaşa bilər: ya təbiətə qarşı zorakılığı davam etdirməklə, genetik fəsadlar yaratmaqla, enerji ifratçılığına, israfçılığına varmaqla, bütün həyat və rifah göstəricilərinin kəskin şəkildə aşağı düşməsi, fiziki və mənəvi müsibətlərlə, münaqişələrlə müşayiət olunan miskin bir gələcək və ya “Ana təbiət”ə zorakılıqla yox, sevgi və sayqı ilə yanaşmaqla, minimum entropiya istehsalı ilə müşayət olunan sadə, qənaətcil, mötədil, mənəvi cəhətdən zəngin həyat tərzi seçməklə, barışıq və tolerantlıq mühitində dayanıqlı, kifayət qədər rifahlı bir gələcəkg İnsan yol ayrıcındadır. Seçim zamanıdır!

### Qiyamət Gününün Saatı

1947-ci ildə atom bombasının yaradılması üzrə Manhetten layihəsində iştirak edən bir qrup amerikan alimlərinin təşəbbüsü ilə Qiyamət Gününün Saatı (Doomsday Clock) adı altında simvolik bir saat yaradıldı. Bu saat adi saatlar kimi işləmir, əslində o, heç işləmir də. O, yalnız bəşəriyyətin nə dərəcədə qlobal fəlakətə yaxın olduğunu simvolizə edir. Dünyada siyasi və ekoloji gərginliyin, atom-nüvə müharibəsi təhlükəsinin təzahür dərəcəsindən asılı olaraq əqrəblərin yeri ildə iki dəfə müəyyənləşdirilir və bu barədə məlumat Çikaqo Universitetinin “Bulletin of the Atomic Scientists” jurnalında bəyan edilir. Saatın göstərişi barədə qərar jurnalın direktorlar şurasının və ekspert qrupunun birgə qərarı ilə müəyyənləşdirilir.

Qeyd etmək lazımdır ki, ekspert qrupunun iştirakçıları arasında 15-ə qədər “Nobel Mükafatı” laureatı var. Bu saatda gecə yarısı 12:00 qlobal fəlakət anını ifadə edir. 2018-ci ildə saatın əqrəbləri 11:58-də qərarlaşdırıldı. 2019-cu ildə isə dünyada gərginlik azalmadığından, saatın göstərişi dəyişdirilmədi. 2020-ci ilin yanvarında isə (pandemiyadan hələ öncə!) əqrəblər 20 saniyə də irəli çəkildi və indi saatda gecə yarısına 100 saniyə qalıbg Bəşəriyyət heç zaman şərti apokalipsisə bu qədər yaxın olmamışdıg Bu, dünya liderlərinə, planetin əhalisinə yönəlmiş xəbərdarlıqdır – nüvə müharibəsi təhlükəsi, bakterioloji-infeksion təxribatlar, qlobal iqlim dəyişiklikləri, kəskin informasiya müharibəsi nəticəsində bəşəriyyət kritik həddə çatıb...

### Təmizlənmə

***Təbiət, canlı və cansız aləm, çeşid-çeşid bitkilər, növ-növ canlılar, çayları, dənizləri, dağları, meşələri, hətta səhraları belə, möhtəşəm, gözəl olan Yer kürəsi “yaranmışların əşrəfi” sayılan insana əmanət edilmişdi. İnsansa şeytanın təşviqi ilə özünü Yer üzünün hökmranı saydı və nəfsə uyaraq, ona verilmiş əmanəti məhv etməklə məşğuldur – təbii sərvətlər amansızcasına dağıdılır, meşələr qırılır, dənizdə, quruda bir çox canlıların, bitki növlərinin kökü kəsilir, genetik fəsadlar törədilir, hava, su, torpaq zəhərlənir və Okean nəhəng çirkab gölünə, zibilxanaya çevrilir...***

Bu məqamda gözlənilmədən başında tac olan bir kabus zühur etdig və İnsan təlaş içində qorxub evində gizləndi. İndi gözləyir, bu kabus, nəhayət, nə vaxt çıxıb gedəcəkg Küçələr, meydanlar, şəhərlər boşalıbg Dünən özünü hökmran sayan birisi bu gün aciz, zavallı bir günə düşüb. Daha əvvəlki kimi təkəbbürlü, lovğa deyil, gələcək üçün xariqüladə planlar qurmur. Həddindən artıq əyləncələr, səyahətlər, kütləvi yarışlar, toplantılar haqqında düşünmür. Yetər ki, salamat qalsın. Daha əvvəlki kimi aqressiv də deyil, savaşlardan, qarşıdurmalardan, düşmənçilikdən çəkinir. Daha əvvəlki kimi israfçı da deyil, təvazökar və qənaətcil bir həyat tərzi seçib.

Göydə təyyarələr, yerdə avtomobillər seyrəkləşib, gəmilər, qatarlar hərəkətsiz qalıb, fabrik bacalarının tüstüsü xeyli seyrəlib. Atmosfer təmizlənir, çayların, dənizlərin suyu durulmaqdadır. Fiziki-mənəvi təmizlənmə gedirg Ağaclar çiçək açmış, torpaq cana gəlir. Havada baharın ətri duyulur. İnsanın təcavüzündən azacıq qurtulmuş təbiət, nəhayət, asudə bir nəfəs almaqdadırg Bu vaxta qədər nəfsinə uyaraq yaşadığı təngənəfəs, qaça-qaçlı həyatın gərginliyindən azad olmuş insan, “Homo sapiens” – “Şüurlu insan” kimi bir qədər dayanıb düşünmək, öz əməllərinə qiymət vermək şansı əldə edib.

“Taclı kabus” dünyada xeyli can alıb bir gün çıxıb gedəcək. Əsas sual: insan yaşamış olduğu bu bəladan, bu sonuncu xəbərdarlıqdan nəticə çıxaracaqmı?! Etiraf və tövbə olacaqmı?! İnsan katarsisə yetişəcəkmi?!..

### Katarsis

***Katarsis – fərdin və ya toplumun müəyyən çətinliklərdən, əzablardan, hətta, bəlalardan, fəlakətlərdən keçib, mənəviyyatca saflaşması, təmizlənməsi və nəticə etibarilə yüksəlməsi effektidir. Lakin bu effektin baş verməsi üçün bir əsas tələb var – fərdin və ya toplumun bu çətinliklərin, sarsıntıların baş verməsində öz günahlarını, səhvlərini dərk edib, etiraf etməsig Ümid edək ki, insan bu “Taclı kabus”un bəlasından qurtulduqdan sonra öz günahlarını etiraf edib, tövbə edib, bəd əməllərindən əl çəkib, mənəvi cəhətdən saflaşacaq və nəhayət, Katarsisə yetişəcək.***